

■ Nurafiz

## OĞUL

Ömrümün qırx ili keçdi şəhərdə,
Bir ürək qorudum büküb qəhərdə.
At minib ehtiyac çapdı yəhərdə,
Payıma düşənə qayiləm, oğul.

Harama əl atsam ölərdim, vallah,
Tikəmi umanla bölərdim, vallah.
Çox şeylər qazana bilərdim, vallah,
Düzlüyüm qoymadı əyiləm, oğul.

Haqq buta eylədi inama məni,
Bircə yol əymədi ənama məni.
Ta gecdir, bu yaşda qınama məni,
Təzədən dəyişən deyiləm, oğul.

## EH... ŞƏHƏR DEDİYİN QURU NAĞILMIŞ

Ayağım altına qoyub ömrümü,
Gözlərim yol çəkə bir səs uzunu.
Gecənin dizini yerə gətirib
Bir misram əridə qəmin buzunu.

İçimin havası göynən əlləşə,
Ayağım altında yerləlik düşə.
Bir dodaq tutumu mahnım oxuna,
Qalanı... qalanı min bölük düşə.

Yenə süfrə aça xatirələrim,
Gözümə, könlümə sıxam doyunca.
Yellər öpüb gedə gülüşlərimi,
Xəyalım at çapa çöllər boyunca.

Sükuta dil verə zurnanın səsi, -
Yenə meydan aça İmir "Cəngiyə".
Əsnəyə-əsnəyə qalan qapılar
Bir əl hənirinə sığa, səngiyə.

Eh... şəhər dediyin quru nağılmış,
Adamı özündə salıb azıdar.
Bəlkə də, özümü gətirəmmədim,
Adımı oxşayın Qarayazıda.

* * *

Arada bir ömür boyu hasar var,
Fikirlər yayaqdı, güman didərgin.
Düşüb yedəyinə bir lal istəyin,
Ərinməz-ərinməz yol yorur ərkim.

Umduğum yerlərə gələn payıznan
Ovuda bilmirəm ağrılarımı.
Arzumun bir ömür uzaqlığında
Kor nisgil oxudur könül tarımı.

Səsimdən bir azca anrı tərəfdə
Yelləncək yelləyir Göy nəm buludda.
Kimsə ağlayırdı dərdə söykənib,
Yağış islanırdı göz yaşı altda.

## SÖZLƏ SƏSİN ARASI

Min il qabaq görmüşdüm
Dodaqlarda bu adı.
Min il sonra anladım, -
Hər kəlməsi duadı.

Laylasına daş dinib,
Ahı dağı çəkirdi.
Səsin içi boyunca
Bir söz ağrı çəkirdi.

Susdum, sükut daş yedi!...
Dindim, sındı sırası.
Nə qədər uzaq imiş
Sözlə səsin arası.

## ƏLLƏRİM OXUDU DUALARIMI

Qara yellərin yaylığı
saçlarımı oxşamaz,
göz yaşımı silə bilməz,
silməz ,nənə!
Dost sınığı dediyin
sınıqçılq deyilmiş,
demişdin dönə-dönə.
Ağrıdan,
adam özünü
öz içində dəfn edərmiş.
İtirdiyim illəri
fikrimin ovcuna yığıb
dualarıma qatdım,
dəyişdi dadı-tamı.
Səbrimin üzünə
salavat çəkdim bu gün,
əllərim oxudu dualarımı.

## QONAQ GƏLƏMMƏDİ NURAFİZ DEYNƏN

Köç gəldi, güldümü yaylaq yolları?
Bəy-xanım çadırlar quruldu eynən.
Tüfəng əl gördümü quş havasına,
İstəklər dindimi tütəknən, neynən?

Çiçəkdən-çiçəyə sirr verdi arı,
Günün sığalına yatdı dağ qarı.
Bu gəliş güldürdü yalquzaqları,
İtlərin yuxusu qarışdı göynən.

Vaxt-vədə dar düşdü, sınaq yolladı,
Özündən özünə qınaq yolladı.
Ahını dağlara qonaq yolladı,
Qonaq gələmmədi Nurafiz, deynən.

## BALANAM, QORU MƏNİ

Sultanım, xanım, paşam,
Qulunam, qoru məni.
Kölgə böyütmür bu şam,
Yolunam, qoru məni.

Bir az ağacam, daşam,
Öz üstümə qonmuşam.
Bəlkə, doğulmamışam,
Yalanam, qoru məni.

Susub içə enmişəm,
Lal dilində dinmişəm.
Dərdindən süd əmmişəm,
Balanam, qoru məni.

## A BAŞINA DÖNÜM SƏNİN

A başına dönüm sənin,
Çəkdiyim ağlıma gəlir.
Qəmim qoşa gəzir mənnən,
Sevinc sıxma-boğma gəlir.

Əl üzsəm də ətəyindən,
Əlim çıxmır pətəyindən.
Ayrılığın tütəyindən
Həzin-həzin nəğmə gəlir.

Gedirəm... bu yol, bu səki,
Kim qarşılar gələn Təki.
Deyən məni bu qan çəkir,
Bu dərd yaman doğma gəlir

## ƏFV EDƏRSƏN ADIMI

Yadından çıxıb gedən
O, qərib oğlan mənəm.
Yenə də qahmar çıxır
Üzündə ağrın nəmə.

Payızın kölgəsində
Şəkil çəkir ayrılıq.
Qarı günlər ötsə də
Qurumayır ağ yaylıq.

Dualara bükərsən
Nağılların dadını.
Harda yadına düşsəm,
Əfv edərsən adımı.

## İÇİMDƏ QIRILAN SƏS

Qəm döymüş Qu səsidir,
Batırar bu səs Udu.
Səhrada su səsidir
İçimdə qırılan səs.

Mehdi - yeldən küsübdü,
Şehdi - güldən küsübdü,
Ehdi - dildən küsübdü,
İçimdə qırılan səs.

İçimi çölə çəkir,
Ahımı telə çəkir,
Mən boyda şələ çəkir
İçimdə qırılan səs





Kaspi 2020.- 14-16 mart.-S.14.